# Tarixlərin komandanı



*Müzəffər Ali Baş komandan*
*İlham Əliyev*
*cənablarına ithaf edilir.*

Allah bağışladı, şükür edirəm,
Sənin dözümünə, səbrinə bizi
İşıq salmaq üçün, nurlu yoluna
Məşəl etməliyik ürəyimizi.

Çıx Vətən seyrinə, şəhid qanına,
Boyanan lalələr əl edir sənə.
Sənə arxayındır ölməyən ruhlar,
Bilirlər qoymazsan ocaqlar sönə.

Biganə qalmışdıq biz təbiətin,
Doğan Günəşinə, yağan qarına.
Dirildi qəlblərdə ölən duyğular,
Qovuşdu ürəklər arzularına.

Tarix yazan İlham, səninlə xalqın,
Əli həm Günəşə, həm Aya çatır.
Səni qiblə bildim, yaxşı ki, gücüm,
Allaha etdiym duaya çatır.

Ürəkdən deyirəm:- bu millət ki var,
Onun nəfəsisən, qürur anısan.
Sən təkcə dünənin, bu günün deyil,
Bütün tarixlərin komandanısan!

***02.12.2020***



*Mədəd*
*MƏMMƏDOV*